**SEVINC MƏHƏRRƏMOVA**
**ADPU-nun Ağcabədi filialı**
**Heydər Əliyev prospekti**
**maharramova.sevinc@mail.ru**

# ŞAH XƏTAİNİN YARADICILIĞINDA NƏFƏS JANRI

**Xülasə**

Ş.İ.Xətainin yazdığı şeirlərin böyük bir hissəsini türk ədəbiyyatında dini mövzuda yazılmış şeir şəkli, ilahilər olan nəfəslər təşkil edir. Türkdilli şeirə aid olduğu üçün, əsasən, heca vəznində yazılmasına baxmayaraq Xətai öz nəfəslərini yazarkən əruz vəznindən də istifadə etmiş və bunun nəticəsi olaraq nəfəsə daha geniş ərazidə və fərqli mühitdə yayılma imkanı yaratmışdır.

Xətainin yaradıcılığında nəfəslərin özünəməxsus yeri var. Həm əruz, həm də heca vəznli yaradıcılığında dönə-dönə nəfəsə müraciət edən Xətai onu digər şeir şəkillərindən üstün tuturdu. Nəfəs insan yaşantısının səbəbi, sübutudur. Nəfəsin başlanğıcı həyatın başlanğıcı, nəfəsin sonu həyatın sonudur. Nəfəs məna yükü çox ağır bir kəlmədir. Bəzən "söz" yerinə, "səs" yerinə də işlənib.

Xətai nəfəslərində qabarıq şəkildə əks olunan mövzulardan biri də ümumilikdə yaradıcılığının ruhuna hopmuş sufizm ideyalarıdır. Bu nəfəslərdə Xətai mürşid və mürid münasibətlərinə xüsusi diqqətlə yanaşmış, bəzi məsələlərə aydınlıq gətirmişdır. Çünki, Xətai özünü həmişə mürşid kimi təqdim etmiş, əsgərlərini isə mürid hesab edərək onlardan itaət tələb etmişdir. Xətainin nəfəsləri kifayət qədər ustalıqla yazılmışdır. Təsadüfi deyil ki, həm öz dövründə, həm də bu günümüzə qədər gəlib çatan uzun bir zaman kəsiyində onun nəfəsləri aşıqlar, ozanlar tərəfindən sevilə-sevilə oxunmuş, təbliğ olunmuşdur.

Məqalədə Şah İsmayıl Xətainin yaradıcılığında nəfəs janrına tədqiqatçı münasibəti əks olunmuş, onun nəfəslərinin təhlili aparılmış və tərbiyəvi təsir imkanları işıqlandırılmışdır.

**Açar sözlər:** Şah Xətai, nəfəs, qızılbaş, mürşid, əruz, ədəbiyyat, janr

Ş.İ.Xətainin yazdığı şeirlərin böyük bir hissəsini türk ədəbiyyatında dini mövzuda yazılmış şeir şəkli, ilahilər olan nəfəslər təşkil edir. Türkdilli şeirə aid olduğu üçün, əsasən, heca vəznində yazılmasına baxmayaraq Xətai öz nəfəslərini yazarkən əruz vəznindən də istifadə etmiş və bunun nəticəsi olaraq nəfəsə daha geniş ərazidə və fərqli mühitdə yayılma imkanı yaratmışdır.

Bu şeir janrı nə üçün məhz nəfəs adlandırılmışdır?

Nəfəs insan yaşantısının səbəbi, sübutudur. Nəfəsin başlanğıcı həyatın başlanğıcı, nəfəsin sonu həyatın sonudur. Nəfəs məna yükü çox ağır bir kəlmədir. Bəzən "söz" yerinə, "səs" yerinə də işlənib. "Tanrının verdiyi nəfəsi boşuna tükəndirmə" kimi bir deyim də var dilimizdə. Tanrı sevib seçdiyi insanlara daha qüdrətli nəfəs verib, onları xalqın sevimlisinə, inam yerinə çevirib. Nəfəslər də məhz bu insanlar tərəfindən yazılıb. Bəli, məhz, Tanrının verdiyi nəfəsdən alıb adını bu şeir şəkli. Alıb və ilahiləşib, Tanrıya, onun seçdiyi insanlara ünvanlanıb, onları vəsf edib.

Xətainin yaradıcılığında nəfəslərin özünəməxsus yeri var. Həm əruz, həm də heca vəznli yaradıcılığında dönə-dönə nəfəsə müraciət edən Xətai onu digər şeir şəkillərindən üstün tuturdu. "*Dinlə nəfəs canlıdır.*" *-deyərək* nəfəsləri diqqətlə dinləməyi, ona bir zövq vasitəsi kimi yox, canlı insan kimi yanaşmağı tələb edir, bu şeirlərin alınan nəfəs qədər dəyərli olduğunu bildirirdi. Xətai nəfəslərə o qədər önəm verirdi ki, "*Adam öldürsən qan olmaz, nəfəs öldürsən qan olur.*" -deməkdən belə çəkinmir, nəfəslərin adi şeir olmadığını, Tanrının qüdrəti ilə yarandığını, anlayıb bilənlər üçün könül incisi, ilahi güc olduğunu, sevildiyini qeyd edirdi.

*Nəfəsi əhli-dilin gövhəri-candır bilənə,*
*Nitqimiz qüdrəti-həq, ruhi-rəvandır bilənə.*

Nəfəsin qiymətini anlayan, onun saf bir inci olduğunu bilən, sözün bir söyləyənləri həqiqi aşiq, gerçək ər hesab edirdi Şah Xətai.

*Nəfəs bir gövhərdir anı bir bilənlər,*
*Sözün bir söyləyənlər gerçək ərdir.*

Şah Xətai öz nəfəslərini Tanrı sevgisi ilə yazırdı. Bu sevgi saf, təmiz, vazkeçilməz sevgi idi. Bu sevgidən dönmək Tanrıdan dönmək, özündən dönmək idi. Xətai öz məhəbbətindən əmin idi. O qədər əmin idi ki, özünü Tanrının dostu, nəfəslərini Haqq nəfəsi adlandırmaqdan da çəkinmirdi.

*Məhəbbət dediyin xaslar xasıdır,*
*Məhəbbət olmayan Haqqın nəsidir?*
*Dost Xətainin bu Haqq nəfəsidir,*
*Məhəbbətdən keçən Haqdan da keçər.*

"Dörd şey vardır bir qarındaşa lazım, bir elm, bir kəlam, bir nəfəs, bir saz", - söyləyən şair bildirirdi ki, nəfəslərdə əks olunan öyüdlərə, nəsihətlərə mütləq əməl olunmalıdır. Çünki nəfəslər adi insanlar tərəfindən deyil, yalnız Tanrı vergisi olan şəxslər - həqiqi aşiqlər tərəfindən yazılır.

*Ərənlər bizə busudur*
*Yalan söyləyən asidir*
*Bu, gerçəklər nəfəsidir.*
*Qalsın, könül, yol qalmasın.*

Nəfəsi "səksən min kəlamın başı" adlandırır Şah Xətai. Məşhur "Söz" rədifli şeirində də, əslində, adi sözü yox, nəfəsi öyür.

*Sözünü bir söyləyənin*
*Sözünü edər sağ bir söz.*
*Pir nəfəsin dinləyənin*
*Yüzünü edər ağ bir söz.*

Əgər insan "pir (mürşid) nəfəsin"dəki öyüd-nəsihətləri dinləyib əməl edirsə, sözünə sadiq qalaraq öz fikrindən dönmürsə hər yerdə hörmət görər, sözü dinlənilər. Bənddən də göründüyü kimi "insanın özünü ağ edən söz" nəfəsin sözləridir.

*Bir söz vardır xalq içində,*
*Dəxi söz var xülq içində,*
*Olmaya ki, dəlq içində,*
*Deyəsən çarqadağ bir söz.*

Şair bu bənddə xalq içində işlənən adi sözlə insanın daxili aləmini, düşüncələrini, əxlaqını ifadə edən sözü müqayisə edərək üstünlüyü "xülq içində" olana, yəni nəfəsə verir. Nəfəs söyləyən hər bir sufi dərvişin sözə diqqətlə yanaşmasını, nəfəsləri səhvsiz, təhrif etmədən söyləməsini tələb edir. *"Dildə nəfəs öldürməzlər, Yezid qövmün güldürməzlər",* - söyləyərək düşmənlərinin qarşısında sözünün kəsərinə, gücünə xələl gəlməsini qəbul etmirdi.

*Söz vardır kəsdirər başı,*
*Söz vardır kəsər savaşı,*
*Söz vardır ağulu aşı,*
*Bal ilən edər yağ bir söz.*

Düşmənləri ilə təkcə qılıncı ilə deyil, eyni zamanda sözü ilə də mübarizə apararaq şeirdən güclü təbliğat vasitəsi kimi istifadə edən Xətai öz şeirləri ilə düşmənlərinin canına vəlvələ salır, onu sevən minlərlə insanı isə ruhlandıraraq ardınca aparırdı. Bunun üçün nəfəslər daha məqsədəuyğun idi. Çünki, həm xalqa daha yaxın olan heca vəznində yazılırdı, həm də aşıqlar tərəfindən geniş bir ərazidə yayılmaq imkanı var idi.

Xətainin nəfəsləri bəzən qəzəblənib qan tökdürər, baş kəsdirər, bəzən də sülh yaradıb savaşları durdura bilirdi, düşmənləri çaşdırar, sevinclərini gözlərində qoyar, ürəklərinə dağ çəkirdi.

*Şah Xətai ayatından,*
*Sözün söylə öz zatından,*
*Olmaya kim, pir qatından,*
*Səni edə irağ bir söz.*

Xətai nəfəslərini Quran ayələrinə, Mənəmməd peyğəmbərin, Əlinin kəlamlarına uyğun səviyyədə söyləməyə çalışır, hansısa səhv bir fikirin, düşünülmədən söylənilən bir sözün onu nüfuzdan sala biləcəyinə, pir qatından – mürşidlik taxtından endirəcəyinə inanırdı.

Düşmənlərindən - qanlılarından atasının, qardaşının intiqamını almaq yolunda apardığı mübarizədə nəfəslərini qılıncına bərabər tuturdu, nəfəsləri ilə döyüşürdü Şah Xətai. Qəlbində Haqq sevgisi vardı, "*adam öldürən suçludur*",- deyib düşmənlərini mənən öldürmək üçün sözün "dişi"nə, sözün qüdrətinə, nəfəslərinə güvənirdi şair.

*Səksən min kəlamın başı,*
*Qanlıdır nəfəs öldürər.*
*Budur övliya buyruğu,*
*Qanlıdır nəfəs, öldürər.*

Xətainin nəfəslərinin böyük qismini qızılbaş məfkurəsini təbliğ edən dini-siyasi şeirlər təşkil edir.

Tədqiqatçı alim Əzizağa Məmmədov Xətainin məhz qızılbaşlıq ideyasını təbliğ edən şeirlərini "nəfəs" adlandıraraq yazır: *"Xətai ilə şöhrətlənən bu şeir cərəyanı yazılı mənbələrdə qızılbaş ədəbiyyatı adı ilə daha çox məhşur olmuşdur. Ədəbiyyatda heca vəzni ilə qızılbaşlığın təbliğinə dair yazılmış bu şeirlərə "nəfəs" adı verilmişdir."(2.* 92*)*

Qızılbaşlar arasında daha çox yayılan bu nəfəslərdə Xətai şeyxlik və şahlıq missiyasını birlikdə daşıyaraq öz müridlərinə - əsgərlərinə həm hökmdar, həm də mürşüd kimi müraciət edirdi. O, şeirin insanlara təsir gücündən məharətlə istifadə edərək öz ideyalarını, dini və siyasi görüşlərini nəfəslərdəki vürğunun vasitəsilə təbliğ edir, cəsarəti, igidliyi, sərkərdəlik bacarığı ilə yanaşı sözün də qüdrətindən yararlanaraq tərəfdarlarının güvənini qazanmağı bacarırdı.

Xətai öz ardıcıllarına təmiz məhəbbətlə, sədaqətlə yola çıxaraq gedəcəkləri yolun doğru yol olduğuna zərrə qədər də şübhə etməmələrini, bunun üçün isə həmişə ayıq olmağı, öz dostlarını, yoldaşlarını ehtiyatla seçməyi, hər kəsə sirr verməməyi, kin saxlamamağı, özlərini başqalarından üstün tutmamağı, ürəklərini pis fikirlərdən, kin-küdurətdən həmişə təmiz saxlamağı tapşırırdı.

*Gəlib ixlas ilə yola gedənin*
*Zərrəcə könlündə güman gərəkməz.*
*Sil-süpür qəlbini, evin pak eylə,*
*Möminin aynası duman gərəkməz.*

Əsgərlərinə "qazi" deyərək müraciət edən Şah İsmayıl döyüşlərdə qılınc çəkərək iştirak edir, əsgərlərini cəsarətli və sadiq olmağa dəvət etməklə yanaşı özünü və onları öyərək növbəti döyüşlərə ruhlandırırdı.

*Biz əzəldən ta əbəd meydana gəlmişlərdəniz,*
*Şahi-mərdan eşqinə mərdanə gəlmişlərdəniz.*

Xətai döyüşçülərinə müraciətlə yazdığı belə şeirlərdə özünü onlara dost, yoldaş adlandırır, ürəyinin onlarla bir olduğunu söyləyirdi. Bu isə onun xalq tərəfindən daha çox sevilməsi, uğrunda mübarizə apardığı ideyaya daha çox imanılması ilə nəticələndi.

*Mənim qazilərimə hörmət eylən,*
*Könül evində onların biriyəm.*
*Məni onlardan ayrı sanmanız siz,*
*Vəleykin onların mən sərvəriyəm.*

1946 və 1956-ci illərdə nəşr etdirdiyi "Şah İsmail Sefevi, Türkce divanı ve nefesleri" kitabına Xətainin 100 nəfəsini daxil etmiş S.N.Ergin yazır: *"Xətainin ədəbi sahədəki ən mühüm fərqliliyi məhz nəfəslər vücuda gətirməsində aranmalıdır.*

*...Onun xalq zövqünə uyğun şəkildə yazdığı bu növ şeirlərdə sənət düşüncəsindən çox təlimi bir məqsəd təqib etdiyi və Anadolu türklərinə İmamilik əqidəsini aşılamaq qayəsini güddüyü açıqca görünür. Və yaqin ki, Şah İsmayıl Səfəvi bu tərz hərəkətləri ilə böyük müvəffəqiyyətlər əldə etmiş, İmamilik əqidəsini Türkiyənin bir çox yerlərinə məhz bu vasitə ilə daha asanlıqla yaymaq imkanını əldə etmişdir."(5. 31)*

Azərbaycanda Səfəvilər dövlətinin ən yaxşı tədqiqatçılarından olan Oqtay Əfəndiyev Xətainin qızılbaş məfkurəsini təbliğ edən şeirlərini qızılbaşlar hərəkatının ideologiyasını açmaq üçün ən

gözəl mənbə hesab edir. *"Hekayə üslubunda olan mənbələr qızılbaşlar hərəkatının ideologiyası, yəni onun iştirakçılarının ictimai və siyasi məramı haqqında mühakimə yürütmək imkanı vermir. Bu cəhətdən Şah İsmayıl Xətainin öz divanı (şeirlər külliyyatı) böyük əhəmiyyət kəsb edir."(3. 52 )*

Xətai nəfəslərində qabarıq şəkildə əks olunan mövzulardan biri də ümumilikdə yaradıcılığının ruhuna hopmuş sufizm ideyalarıdır. Bu nəfəslərdə Xətai mürşid və mürid münasibətlərinə xüsusi diqqətlə yanaşmış, bəzi məsələlərə aydınlıq gətirmişdır. Çünki, Xətai özünü həmişə mürşid kimi təqdim etmiş, əsgərlərini isə mürid hesab edərək onlardan itaət tələb etmişdir. Mürşidin hər bir sözünü Tanrı sözünə bərabər tutaraq ona əməl etməyənləri asi, günahkar adlandıran Xətai tutduğu yolun doğru yol olduğunu və bu yoldan heç bir zaman ayrılmayacağını bildirir və müridlərinə onlardan razı qalacağı halda Tanrının da məmnun olacağı fikrini təlqin edirdi.

*Mürşidin nəfəsi Haqq nəfəsidir,*
*Mürşid sözün tutmayanlar asidir.*
*Mürşidin rizası Haqq rizasıdır,*
*Haqq deyib tutduğum yoldan ayrılmam.*

Xətai hər bir həqiqi sufinin nəfəslərdə deyilənlərə inanmalı olduğunu, lazım gəlsə öz məsləki yolunda canından belə keçməyə hazır olmasını söyləyərək "iqrar"ından, yəni təriqət yoluna qədəm qoyarkən mürşidinə bu yolun bütün hökmlərinə əməl edəcəyinə dair verdiyi sözdən dönəni lənətləyir və bunu Tanrıdan dönmək kimi qiymətləndirir.

*Gerçək olan bir nəfəsə inana,*
*Canımız veririz qurban canana,*
*Lənət olsun iqrarından dönənə,*
*Məhəbbətdən keçən Haqdan da keçər.*

"Talibi rəhbərdir Haqqa yetirən", - söyləyən Xətaiyə görə mürşid öz talibini doğru yola çəkərək cahillikdən xilas etməli, onun hər bir nöqsanını aradan qaldırmalıdır. Səhvə yol verən mürid öz nöqsanını düzəltdikdən sonra bağışlanmalı və mürşid onun təriqətin dörd qapısının hər birindən keçməsinə köməklik göstərməlidir.

*Pir oldur ki, pir yurdunda otura,*
*Talibin nöqsan yerini yetirə,*
*Təsəlli veribən yola gətirə,*
*İlişdirə dörd qapını cəminə.*

Xətai "dörd qapı" dedikdə sufizmin dörd mərhələsini – şəriət, təriqət, mərifət və həqiqəti nəzərdə tutur. Bunlar sufizmdə hər bir sufinin son məqsədə çatmaq üçün keçməli olduğu 4 mərhələdir. İlk mərhələ olan Şəriətdə İslam dininin qayda-qanunları qəbul edilərək Təriqət mərhələsində icra edilir. Mərifət Tanrını dərketmə, Həqiqət isə Tanrıya yetişmək, ilahi əxlaqa yiyələnməkdir.

Xətai bildirirdi ki, Həqiqətə çatmaq heç də asan deyil. Bunun üçün müvafiq pillələri tədricən, öyrənərək, sirlərə vaqif olaraq aşmaq lazımdır. Bu sirləri isə məhz nəfəslər vasitəsilə çatdırırdı Xətai müridlərinə.

*Dinlə nəfəs canlıdır*
*Tutmayanlar qanlıdır*
*Xətayi həzər eylə*
*Bu yol nərdivanlıdır.*

Xətai öz nəfəslərində bu mərhələləri böyük sevgi ilə tərənnüm edir və bu yolu keçməyin heç də asan olmadığını, "dörd qapının qırx məqamı" (hər mərhələnin on məqamı) olduğunu bildirir.

*Ala gözlü pirim gəldi,*
*Duyan gəlsin iştə meydan.*
*Dörd qapını, qırx məqamı,*
*Bilən gəlsin iştə meydan.*

Xətainin nəfəslərinin böyük bir qismini şiə imamlarına, xüsusilə, Həzrəti Əliyə bağlılığını əks etdirən şeirlər təşkil edir. Həzrəti Əli Məhəmməd peyğəmbərin (s.a.v) zamanında, həm də ondan sonrakı illərdə islam dininə olan xidmətləri və yüksək əxlaqi keyfiyyətləri ilə Şah İsmayılın və ümumilikdə qızılbaşların ifrat sevgisini qazanmış və bu sevgi bütövlükdə Xətai yaradıcılığının ruhuna hopmuşdur.

*Şah Xətai aydır; -Bu doğru yoldur,*
*Doğru yoldur, bu həm eşq məqamıdır.*
*Əksigə qalmayan pirim Əlidir,*
*Qəlbində şübhəsi olan gəlməsin.*

Həzrəti-Əliyə sonsuz məhəbbət və sayğı göstərərək onu özünə örnək alan Xətai müridlərindən də onu uca tutmağı, sayğı və ehtiram göstərmələrini istəyirdi. Döyüşçülərini onun eşqi ilə ruhlandırır, ölümün gözünə dik baxmağı, qorxmamağı təlqin edirdi.

Belə nəfəslərində Xətai Həzrəti Mühəmməd peyğəmbərlə Həzrəti Əli arasındakı bağlılığı və sevgini də xüsusi məhəbbətlə tərənnüm edirdi. Təriqətdə bu bağlılığı ifadə edən "müsahib olmaq" ifadəsi "axirət qardaşı olmaq" anlamına gəlir və bu mövzuda olan nəfəslər əsasən Şah Xətainin adı ilə bağlıdır.

Xətainin nəfəsləri kifayət qədər ustalıqla yazılmışdır. Təsadüfi deyil ki, həm öz dövründə, həm də bu günümüzə qədər gəlib çatan uzun bir zaman kəsiyində onun nəfəsləri aşıqlar, ozanlar tərəfindən sevilə-sevilə oxunmuş, təbliğ olunmuşdur. Bu gün də Türkiyədə çox sevilən bu nəfəslər, təəssüf ki, Azərbaycanda təbliğ olunmur.

Halbuki, başdan-başa dərin mənalı öyüd və nəsihətlərlə, atalar sözləri və məsəllərlə zəngin olan bu şeirlər gənc nəslin təlim tərbiyəsində mühüm rol oynayırdı.

"Bir nəfəscik söyləyəlim, dinləməzsən neyləyəlim?" -deyib gözü yolda qalan şah babamızın Tanrı qüdrəti ilə yazılan, insana daxili güc, həyat sevgisi bəxş edən nəfəslərinə qovuşub könül evimizi arıdaq, təmizləyək, pak edək.

*Qəba səba olsun həmən yük olsun,*
*Arıdalım könül evi pak olsun.*
*Şah Xətai nəfəsimiz Haqq olsun,*
*Biz nəfəsimizdən ayrılmayalım.*

## İstifadə edilmiş ədəbiyyat

1. Şah İsmayıl Xətayi, Əsərləri, Bakı, "Şərq-Qərb", 2005
2. Əzizağa Məmmədov "Şah İsmayıl Xətai" Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı Bakı 1961
3. O.Ə.Əfəndiyev, «Azərbaycan Səfəvilər dövləti», Bakı, 1993
4. Yaqub Babayev "Təriqət ədəbiyyatı: Sufizm, hürufizm" Bakı "Nurlan" 2007
5. Sadettin Nüzhet Ergun "Hatayi divanı" Şah İsmail Sefevi, Edebi Hayatı ve Nefesleri, 1946 və 1956

**S. Maharramova**

## Breath genre in the creation work of Shah Khatai
## Summary

Most of the poems written by Ş.İ. Khatai are a poem written in Turkish literature and breaths with divine names. Although it was written in the syllabus of the Turkic-speaking poetry, Khatai also used an aleurashes while writing his breath and, as a result, gave the opportunity to spread breath in a wider area and in a different environment.

The breathing has a special place in the work of the era. Khatai, who used to go back to the breath repeatedly in his creed and sermon, was superior to other poetry figures. Breath is the cause of human life. The beginning of life is the beginning of the breath, the end of breath is the end of life. The burden of a burden is very heavy. Sometimes instead of "word", "voice" has been worked out.One of the issues reflected in the Xatai breaths is the ideas of Sufism, which generally aspired to the spirit of their creativity. In these breaths, Khatai was specifically attentive to murshid and murid relationships, clarifying some issues. Because Khatai always presented himself as a murshid and considered his soldiers as mere professed obedience. The breaths of the era are written with skill. It is no coincidence that his breaths were exposed and promoted by the ashugs, poets, in a long period of time, both in their time and in the present day.

In the article, Shah Ismayil Khatayi's work reflects the researcher's attitude towards the breath genre, his breaths analyzed, and his educational impressions have been illuminated.

**Key words:** Shah Khatai, breath, gyzylbash, murshid, aruz, literature,genre

**С.Магеррамова**

**Жанр дыхания в творчестве Шаха Хатаи**

**Резюме**

Большинство стихов, написанных Э. И. Хатаи, - это стихотворение, написанное в турецкой литературе и содержащее вдохновение с божественными именами. Хотя это было написано в программе тюркоязычной поэзии, Хатаи также использовал алейраш, когда писал свое дыхание, и, как следствие, дал возможность распространять дыхание в более широкой области и в другой среде.Дыхание занимает особое место в работе эпохи. Хатаи, который неоднократно возвращался к дыханию в своих вероучениях и проповедях, превосходил других поэтических деятелей. Дыхание - причина человеческой жизни. Начало жизни - это начало дыхания, конец дыхания - это конец жизни. Бремя бремени очень тяжелое. Иногда вместо «слова» вырабатывается «голос».Одной из проблем, отраженных в дыхании ксатаев, являются идеи суфизма, которые в целом стремились к духу их творчества. В этих вздохах Хатаи был особенно внимателен к муршидным и мрачным отношениям, проясняя некоторые вопросы. Потому что Хатаи всегда представлял себя как муршид и считал своих солдат простым исповеданным послушанием. Дыхания эпохи написаны с умением. Неслучайно его дыхания были открыты и поддержаны ашугами, поэтами в течение длительного периода времени, как в их время, так и в наши дни.

В статье работа шаха Исмаила Хатаи отражает отношение исследователя к жанру дыхания, анализ его дыхания и его просветительские впечатления.

**Ключевые слова:** Шах Хатаи, дыхание, кызылбаш, муршид, аруз, литература, жанр

Redaksiyaya daxil olma tarixi: 20. 04.2019
Çapa qəbul olunma tarixi: 30.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Vaqif Allahverdiyev tərəfindən çapa tövsiyə olunmuşdur.